Digitally signed by Ţîganu Eugeniu
Date: 2026.05.04 08:50:15 EEST
Reason: MoldSign Signature
Location: Moldova
MOLDOVA EUROPEANĂ

**_İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi_**

*Qurumun adı* "DATUM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 14.04.2008

*Dövlət qeydiyyat № (VÖEN)* 2001215881

*Təşkilati-hüquqi forması* Məhdud məsuliyyətli cəmiyyət

*Sahibkarlıq subyektinin meyarı* Kiçik sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı* AZ1142, BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU, İSMAYIL MƏMMƏDOV, ev 6, mənzil 4

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 110.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*
İSMAYILOV HEYDƏR CAMAL OĞLU - 100 %

*Çıxarışın verildiyi tarix və №* 13.08.2025, 3-21-2-2-1/2-59649/2025

Cəfərova L.T.

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi**

*Qurumun adı* "DATUM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 2001215881

*Qanuni təmsilçi* İSMAYILOV ANAR CAMAL OĞLU

*Çıxarışın verildiyi tarix və №* 13.08.2025, 3-21-2-2-1/2-59649/2025

Cəfərova L.T.

**iyirmi yeddi yanvar iki min iyirmi altıncı il**

Mən, **Bakı şəhəri 21 saylı notariat ofisinin Xüsusi notariusu Kərimov Daxil Fazil oğlu** elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə 27.01.2026 tarixdə 10:02 saatda "https://www.e-taxes.gov.az/" keçid linkindən əldə edilmiş məlumat və ya sənədlərin surətinin düzgünlüyünü təsdiq edirəm.

Reyestrdə IS-**1060** № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.
3.00 manat haqq tutulub

M.Y.

Notariat hərəkətini aparmağa
müvəkkil edilmiş şəxs____________________(imza)

çap tarixi: 27.01.2026 10:06
2678611001060

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*
*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az

*"Dövlət qeydiyyatına alınmışdır"*

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən

İdarə rəisi: Lalə Cəfərova

Bu sənəd gücləndirilmiş elektron imza vasitəsi ilə imzalanmışdır

*"Təsdiq edilmişdir"*

**" Datum"**
**Məhdud Məsuliyyətli Cəmiyyətinin**
**təsisçisi**
**İsmayılov Heydər Camal oğlu tərəfindən**

(imza möhür)

# "Datum"
# Məhdud Məsuliyyətli Cəmiyyətinin
# NİZAMNAMƏSİ

## (3-cü redaksiya)

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Datum" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra Cəmiyyət adlanacaq) öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu Nizamnamə əsasında həyata keçirir.
1.2. Bu nizamnamə cəmiyyətin 3-cü redaksiya nizamnaməsidir.
1.3.Hüquqi ünvan: Bakı şəhəri, Az1142, Nizami rayonu, İsmayıl Məmmədov küçəsi, ev 6, mənzil 4.

## 2. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI

2.1. Cəmiyyətin nizamnamə kapitalı 110 manat həcmindədir və hər biri 1 manat olmaqla 110 paydan ibarətdir.
2.2. Cəmiyyətin nizamnamə kapitalında iştirakçılarının payları aşağıdakı kimi müəyyən edilmişdir: Azərbaycan Respublikasının vətəndaşı İsmayılov Heydər Camal oğlu (Ş/V Aze No 16594889, ASAN-SUMQAYIT, 23.07.2016, Ünvan:Sumqayıt şəh., MİK -8, ev 10/8, m. 41) – 110 manat, 110 pay, 100%, pul şəklində.

2.3.Təsisçilər Nizamnamə kapitalına öz paylarını pul şəklində, qiymətli kağızlar, başqa əmlak və ya əmlak hüquqları və ya pul dəyəri olan digər hüquqlar formasında qoya bilərlər. Bu öhdəlik təsisçilər tərəfindən pozulduqda onlar Ümumi Yığıncağın qərarı ilə qəbul edilmiş qaydalara müvafiq məsuliyyət daşıyırlar. Nizamnamə kapitalına qoyulan əmlak və digər mülkiyyətin qiymətləndirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.
2.4.Cəmiyyət iştirakçılarının qoyduqları mayaların tərkibi və onun dəyişməsi, mayanın qoyulması qaydası və müddəti ümumi yığıncaq tərəfindən müəyyən edilir.
2.5.Vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranan xalis mənfəət iştirakçılar arasında onların nizamnamə kapitalındakı paylarına mütənasib qaydada və ümumi yığıncağın qərarı əsasında bölüşdürülür.
2.6.İştirakçının payını (onun bir hissəsini) məhdud məsuliyyətli cəmiyyətin əldə etdiyi halda cəmiyyət onu ümumu yığıncağın qərarında müəyyən edilmiş müddətdə və qaydada satmalı və ya qanunvericiliyə müvafiq qaydada nizamnamə kapitalını azaltmalıdır.

## 3. CƏMİYYƏTİN FƏALİYYƏTİ

3.1. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

## 4. Cəmiyyətin ali idarəetmə orqanı

**4.1.** Cəmiyyətin ali idarəetmə orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Bir iştirakçısı olan cəmiyyətdə cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri iştirakçı tərəfindən təkbaşına həyata keçirilir.
**4.2.** Ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar iştirakçılar tərəfindən qəbul edilir, yazılı surətdə rəsmiləşdirilir, onlar tərəfindən imzalanır və möhür vurulur.
**4.3.** Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.
**4.4.** Növbəti ümumi yığıncaq icra orqanı tərəfindən ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.
**4.5.** Növbədənkənar ümumi yığıncaq Cəmiyyətin maraqları tələb etdikdə istənilən hallarda çağırıla bilər. Növbədənkənar ümumi yığıncaq icra orqanının öz təşəbbüsü ilə, habelə bütün səslərin azı

onda birinə malik olan iştirakçıların tələbi ilə çağırılır. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı ləğvetmə komissiyası tərəfindən çağırılır.

**4.6.** Həm növbəti, həm növbədənkənar ümumi yığıncağın keçirilməsi barədə təsisçilərin hər birinə ümumi yığıncağın gündəliyi, tarixi, vaxtı və keçiriləcəyi ünvan qeyd olunmaqla yazılı bildiriş göndərilməli və çatdırılması təmin edilməlidir.

**4.7.** Cəmiyyətin təsisçilərinin ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

*4.7.1. Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarının dəyişdirmək;*

*4.7.2. Cəmiyyətin icra orqanlarını yaratmaq, icra orqanının üzvlərini təyin etmək, onların səlahiyyət müddətini müəyyənləşdirmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;*

*4.7.3. Cəmiyyətin icra orqanının səlahiyyətlərinin kənar idarəçiyə vermək;*

*4.7.4. Cəmiyyətin illik hesabatlarını və maliyyə hesabatlarını təsdiq etmək, mənfəəti və zərəri bölüşdürmək;*

*4.7.5. Cəmiyyətin digər hüquqi şəxslərdə iştirakı, habelə filial və nümayəndəliklərinin yaradılması və ləğvi barədə qərar qəbul etmək;*

*4.7.6. Cəmiyyətin direktorlar şurasını (müşahidə şurasını) və (və ya təftiş komissiyasını (müfəttişini) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;*

*4.7.7. Xüsusi əhəmiyyətli əqdin (cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd) bağlanılması barədə qərar qəbul etmək;*

*4.7.8. Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək.*

**4.8.** Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz.

**4.9.** Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək (qanunvericiliyin aidiyyəti şəxslə bağlı müddəaları gözlənilməklə), şəxsən iştirak etmək və ya qanunvericiliklə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək hüququ vardır. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət etibarsızdır.

**4.10.** Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının əlli faizindən artıq hissəsinə malik olan iştirakçıları iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.

**4.11.** Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən çağırılmalıdır. Yenidən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının əlli faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.

**4.12.** Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.

**4.13.** Cəmiyyətin ləğv edilməsi və ya yenidən təşkili barədə qərarların qəbul olunması üçün cəmiyyətin nizamnamə kapitalındakı payların 100%-nə malik olan iştirakçılar ümumi yığıncaqda təmsil olunmalıdırlar.

**4.14.** Ümumi Yığıncaqda Nizamnamənin və nizamnaməyə edilən əlavə və dəyişikliklərin, nizamnamə kapitalına ödənilən pul olmayan əmanətin dəyərinin təsdiq edilməsi, idarəetmə orqanlarının

formalaşdırılması, cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, o cümlədən icra orqanının üzvlərini təyin etmək və geri çağırmaq, onların səlahiyyət müddətini müəyyənləşdirmək, Cəmiyyətin yenidən təşkil və ya ləğv edilməsi barədə qərarlar ümumi yığıncaqda iştirak edən bütün iştirakçıların yekdil qərarı ilə, digər məsələlər isə sadə səs çoxluğu ilə qəbul edilir.

## 5. Cəmiyyətin icra orqanı

**5.1.** Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik Cəmiyyətin icraedici orqanı və qanuni təmsilçilik funksiyasına malik olan rəhbər (direktor, icraçı direktor və ya baş direktor) tərəfindən həyata keçirilir.

**5.2.** Rəhbərin səlahiyyətlərinə aşağıdakılar aid edilir:

*5.2.1. Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirmək;*

*5.2.2. Vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyəti daxilində çıxış etmək, onu bütün dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, hüquqi şəxslər və digər qurumlar qarşısında, o cümlədən məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil etmək;*

*5.2.3. Ümumi yığıncaq və digər idarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin etmək;*

*5.2.4. Öz səlahiyyəti daxilində Cəmiyyətin adından mülki-hüquqi müqavilələr bağlamaq, vəkalətnamələr vermək (o cümlədən başqasına etibar etmək hüququ ilə), müvəkkil banklarda Cəmiyyətin istənilən növ bank hesablarını açmaq və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı hesab üzrə sərəncam vermək;*

*5.2.5. Cəmiyyətin əməkdaşlarının əmək funksiyasının dairəsini müəyyən etmək, onlarla əmək müqavilələri bağlamaq, şərtlərini dəyişdirmək və qanunvericiliklə müəyyən edilmiş qaydada və əsaslarla əmək müqavilələrini ləğv etmək;*

*5.2.6. Cəmiyyətin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görmək;*

*5.2.7. Öz səlahiyyəti daxilində qərarlar qəbul etmək və həmin qərarları yazılı surətdə rəsmiləşdirmək;*

*5.2.8. Cəmiyyətə dair kommersiya sirri təşkil edən məlumatları (təsisçilər və onların nizamnamə kapitalındakı payları barədə məlumat daxil olmaqla) əldə etmək və Cəmiyyətin cari fəaliyyətində istifadə etmək;*

*5.2.9. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar digər zəruri sənədləri və təklifləri hazırlamaq;*

*5.2.10. Qanunvericiliklə və Cəmiyyətin Nizamnaməsi ilə Ümumi yığıncağın və digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirmək.*

**5.3.** Cəmiyyətin icra orqanının səlahiyyətləri müqavilə əsasında başqa fiziki və ya hüquqi şəxslərə (kənar idarəçiliyə) verilə bilər.

## 6. Cəmiyyətin ləğv olunması

**6.1.** Cəmiyyətin ləğv olunması Azərbaycan Respublikasının Mülki Məcəlləsində və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.

**iyirmi yeddi yanvar iki min iyirmi altıncı il**

Mən, **Bakı şəhəri 21 saylı notariat ofisinin Xüsusi notariusu Kərimov Daxil Fazil oğlu** elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə 27.01.2026 tarixdə 10:02 saatda "https://www.e-taxes.gov.az/" keçid linkindən əldə edilmiş məlumat və ya sənədlərin surətinin düzgünlüyünü təsdiq edirəm.

Reyestrdə 1S-**1059** № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.

4.00 manat haqq tutulub

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
NOTARIUS KƏRİMOV DAXİL FAZİL oğlu
İYİRMİ BİR SAYLI NOTARİAT OFİSİ
Bakı şəhəri

M.Y.

Notariat hərəkətini aparmağa müvəkkil edilmiş şəxs_______________(imza)

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*

*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*

*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az

çap tarixi: 27.01.2026 10:06

2678611**001059**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
NOTARIUS KƏRİMOV DAXİL FAZİL oğlu
İYİRMİ BİR SAYLI NOTARİAT OFİSİ
Bakı şəhəri

vərəq ... nömrələnmiş və qaytalanm...

*Qeydiyyat orqanının adı* Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **"DATUM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

*Ünvanı* AZ1142 BAKI ŞƏHƏRİ NİZAMİ RAYONU İSMAYIL MƏMMƏDOV (8 KM) ev.6 m.4

*Qeydiyyata alındığı tarix* 14.04.2008

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixi Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**QEYDİYYAT №(VÖEN)** **2001215881**

**Alimova Nigar Əyyub qızı**
Qeydiyyat orqanının rəhbəri 07.01.2011

**iyirmi yeddi yanvar iki min iyirmi altıncı il**

Mən, **Bakı şəhəri 21 saylı notariat ofisinin Xüsusi notariusu Kərimov Daxil Fazil oğlu** elektron informasiya sistemləri və ya ehtiyatları vasitəsilə 27.01.2026 tarixdə 10:02 saatda "https://www.e-taxes.gov.az/" keçid linkindən əldə edilmiş məlumat və ya sənədlərin surətinin düzgünlüyünü təsdiq edirəm.

Reyestrdə 1S-**1061** № ilə qeyd edilib, informasiya sisteminə daxil edilib.
3.00 manat haqq tutulub

M.Y.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi • NOTARIUS KƏRIMOV DAXIL FAZIL oğlu • İYIRMI BIR SAYLI NOTARIAT OFISI • Bakı şəhəri

Notariat hərəkətini aparmağa
müvəkkil edilmiş şəxs______________________________(imza)

çap tarixi: 27.01.2026 10:08
2678611**001061**

*Sənədin həqiqiliyini QR kod vasitəsilə yoxlamağınız tövsiyyə edilir.*
*Рекомендуется проверить подлинность документа с помощью QR-кода.*
*It is recommended to check the authenticity of the document using a QR-code.*

www.notariat.az